# KİTABXANALARDA H.ƏLİYEV İRSİNİN VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ TƏBLİĞİ

*Günay BALAKİŞİYEVA*

***Агитация наследии Гейдара Алиева и идеологии азербайджанство в библиотеках***
***Резюме:***_В статье были исследованы вопросы агитации наследия Гейдара Алиева и идеологии азербайджанство в библиотеках. Объект исследования статьи - библиотеки занимающийся продвижением наследии Гейдара Алиева и идеологии азербайджанство._

***Propaganda of Heydar Aliyev's heritage and the ideology of the azerbaijanism in libraries***
***Abstract:***_Problems of propaganda of Heydar Aliyev's heritage and the ideology of azerbaijanism in libraries have been investigated in this article. The object of the research of article are libraries who engaged in propaganda of Heydar Aliyev's heritage and the ideology of azerbaijanism._

***Açar sözlər:*** *kitabxana, Heydər Əliyev, irs, azərbaycançılıq, təbliğat*
***Ключевые слова:*** *библиотека, Гейдар Алиев, наследие, азербайджанство, пропаганда*
***Keywords:*** *library, Heydar Aliyev, heritage, azerbaijanism, propaganda*

## 1. Giriş.

Hər bir xalq görkəmli şəxsiyyətləri ilə tanınır. Onlar xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirir. Heydər Əliyev Azərbaycan tarixinin yetişdirdiyi ən nadir simalardan biri, türk dünyasının və ümumən sivil dünyanın qüdrətli şəxsiyyətlərindən biridir. Tarixə Azərbaycan xalqının ümummilli lideri kimi daxil olmuş bu insane liderlərə məxsus ən ali keyfiyyətlərə malikidi.

Ümummilli lider Heydər Əliyevin uzaq görən siyasəti nəticəsində Azərbaycan bu gün dünya miqyasında sivil, hüquqi, demokratik, dünyəvi bir respublika kimi tanınır və böyük perspektivlərə malik bir ölkə kimi qəbul edilir.

İdeologiya xalqın milli-mənəvi varlığının ilkin əlamətlərindən olub, xalqın kimliyini əks etdirən təfəkkür, adət və inanclar sistemidir. Dil, ərazi, din və ideoloji birlik xalqın, millətin və dövlətin tarixi varlığının əsas atributlarıdır.

Onu da qeyd etmək lazımdır ki, kitabxanalar Heydər Əliyev irsinin və azərbaycançılıq idealogiyasının təbliğində böyük rol oynayır. Heydər Əliyev irsinin özündə əks etdirən kitabları sistemləşdirib oxucuların istifadəsinə verir.

## 2. Məsələnin qoyuluşu

Məqalədə Heydər Əliyev irsinin və azərbaycançılıq idealogiyasının təbliğində kitabxanaların rolu və bu işdə kitabxanalar qarşısında duran vəzifələr

araşdırılmışdır. Qeyd etmək lazımdırki, mədəniyyətimizin mühüm sahəsi

Olan kitabxanalar Heydər Əliyev irsinin öyrənilməsində, azərbaycançılıq idealogiyasının təbliğində böyük işlər görür. Problemin öyrənilmə dərəcəsi isə son illərdə daha da genişlənmişdir.

Məqalədə tədqiqat obyekti – Heydər Əliyev irsinin və azərbaycançılıq ideologiyasının təbliği ilə məşğul olan kitabxanalar və onların fəaliyyətidir.

Araşdırma mövzusu – kitabxanalarda Heydər Əliyev irsinin və azərbaycançılıq idealogiyasının öyrənilməsinin, təbliğ edilməsinin təminatıdır.

Tədqiqatın məqsədi – kitabxanalarda Heydər Əliyev irsinin və azərbaycançılıq idealogiyasının təbliğatı məsələlərinin öyrənilməsidir.

Tədqiqatın qarşısında duran məsələlər: kitabxanalarda Heydər Əliyev irsini və azərbaycançılıq idealogiyasının təbliği məsələlərini təhlil etmək; Heydər Əliyev iris və azərbaycançılıq idealogiyasını kitabxanaların sənədin formasi ya resurslarının tərkibi kimi araşdırmaq.

Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonar cəmiyyətin bütün sahələrində olduğu kimi kitabxana işi sahəsində də əsaslı dəyişikliklər dövrü başlanmışdır. Bu dəyişikliklər respublikamızın kitabxana ictimaiyyəti tərəfindən olduqca müsbət qiymətləndirilləndirilir. Cəmiyyətdə mühüm social funksiyaları yerinə yetirən kitabxanalar, insane elminin formalaşmasında, elmi texniki tərəqqinin sürətləndirilməsində, ölkəmizin iqtisadi, social və mədəni inkişafında yaxından iştirak edir, milli dövlətçilik ideyalarının geniş xalq kütlələri arasında yayılmasında geniş təşkilatçılıq işləri aparır. Bu gün kitabxanalar

Informasiyalaşmış vətəndaş cəmiyyətinin əsas göstəricisi olan qlobal informasiya mühitinin beynəlxalq, milli və regional səviyyədə informasiyanın əmtəəyə cevrilməsində informasiya və bilik bazarının yaradılması və inkişafında, təhsil sisteminin və səviyyəsinin artırılmasında aparıcı rol oynayır.

2013-cü il Azərbaycanda dövlət səviyyəsində qeyd edilən bir sıra yubileylərlə əlamətdar olmuşdur. Belə yubileylər sırasında ən əlamətdar olanı - Heydər Əliyevin 90 illik yubileyidir. Heydər Əliyevin 90 illik yubileyi ilə bağlı olaraq il ərzində keçirilən tədbirlərin böyük bir hissəsi azərbaycançılıq ideyasının

Heydər Əliyev irsinin təbliğinə həsr olunmuşdur.

Heydər Əliyevin zəngin irsinin, dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin xüsusən formalaşan gənc nəsiltərəfindən öyrənilməsində kitabxanaların üzərinə bir sıravəzifələr düşür.Heydər Əliyev irsini və Azərbaycançılığı təbliğ etməküçün qarşıda duran vəzifələrdən biri kitabxanaların fondunuHeydər Əliyev irsi və azərbaycançılıq haqqında ədəbiyyatla komplektləşdirməkdən və müvafiq soraq-biblioqrafiya aparatınıtəşkil etməkdən ibarətdir. Nəşriyyatlar, kitab mağazaları ölkəşünaslıq ədəbiyyatının nəşrini, yayılmasını və təbliğini həyata keçirdikləri üçün kitabxanaçıların onlarla əlaqəli işləməsi vacibdir.

Hər bir kitabxana Heydər Əliyev irsinin təbliğini asanlaşdırmaq üçün "Heydər Əliyev-90", "Heydər Əliyev və azərbaycançılıq", "Müstəqil dövlətçiliyimizin banisi-Heydər Əliyev" və s. adlı kartotekalar hazırlamalı və



mövcud rubrikaları zənginləşdirməlidir. Kartotekaları müntəzəm olaraq yeni materiallarla zənginləşdirmək lazımdır.

Milli Kitabxanada ümummilli lider HeydərƏliyevin Azərbaycan dövlətçiliyinin qurulmasında və rifahının yüksəlməsindəki xidmətlərindən, onun mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizinin kişafına göstərdiyi xüsusi qayğıdan bəhs edən kitabxananın fondunda olan materiallar əsasında elektron resurslar – elektron kitablar, məqalələr, fotoşəkillər, audio və video materiallardan ibarət "Heydər Əliyev mədəniyyətimizin hamisidir" adlı elektron məlumat bazası hazırlanmışdır.

90 – cıillərdə Heydər Əliyev bir neçəd əfə M.F. Axundov Adına Azərbaycan Milli Kitabxanasına getmiş, şəxsi kitabxanasından həmin kitabxanaya xeyli kitab bağışlamış, kitabxana, kitabxana işi və kitabxanaçı haqqında parlaq nitqlər söyləmiş, kitabxananı "xalq, millət üçün, cəmiyyətüçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəkamənbəyi" adlandırmışdır.(1, s 13)

1969-cu ilin 14 iyulunda keçirilən Azərbaycan KP Mərkəzi Komitəsinin plenumu Heydər Əlirzaoğlu ƏliyeviAzərbaycan KP MK nın birinci katibi seçdi. 1969-cu ildə Heydər Əliyevin siyasi hakimiyyətə ilk gəlişi ilə Azərbaycan özünün həqiqi inkişafını tapdı. Ən geridə qalan respublikalardan hesabedilən Azərbaycanın inkişaf və tərəqqisinin əsası məhz bu tarixdən qoyulmuşdur. Bu plenum Azərbaycanın tarixində çox mühüm, tale yüklü bir hadisə oldu, respublikamızın gələcək inkişafında çox əhəmiyyətli rol oynadı. Bununla da Azərbaycan xalqının tarixində Heydər Əliyev dövrü – böyük dönüş mərhələsi başlandı. Bu dövrdən bəhs edən H.Əliyev yazırdı: "Qətiyyətlə bildirmək olarki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzun müddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi".(2, s 6)

Qədim dövrlərdən başlayaraq bugünə kimi Azərbaycan xalqının adət ənənələrini, milli-mənəvi dəyərlərini, polietnik zənginliyini özündə yaşadan və birləşdirən baxışlar sisteminin əsasında azərbaycançılıq ideyası təşəkkül tapmışdır. Azərbaycan tarixən çox millətli ölkə, milli və dini tolerantlığın bərqərar olduğu məkan kimi tanınmış və bu üstün cəhətlər azərbaycançılıq məfkurəsinin əsasını təşkil etmişdir. Böyük mütəfəkkirlərin, dövlət adamlarının, ictimai xadimlərin fəaliyyətində bu ideya zaman-zaman özünü göstərmişdir.

Azərbaycançılıq ideologiyası XX əsr boyu mürəkkəb bir inkişaf yolu keçmişdir. Azərbaycan mütəfəkkirləri həmin ideologiyanın təkmilləşməsi, azərbaycanlıların şüurunda möhkəm yer tutması üçün sadəcə çalışmamış, zəngin tarixi olan bir mücadilə vermişlər. Lakin azərbaycançılığın ümummilli ideya halına gəlməsi, bütün dünya azərbaycanlılarını birləşdirən məfkurəyə, müstəqil Azərbaycan dövlətinin ideyasına çevrilməsi məhz Heydər Əliyevin tarixi xidmətlərinin nəticəsidir.

Heydər Əliyevin azərbaycançılığı ümummilli ideologiya olaraq irəli sürməsi onun Azərbaycan dövlətçiliyi naminə göstərdiyi böyük tarixi xidmətlərdən biridir. Məhz azərbaycançılıq məfkurəsi Azərbaycana qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik bölücülük əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər olmuşdu.

Müstəqillik yollarında ilk addımlarını atan hər bir dövlətin qarşısında həmrəyliyi xüsusi vurğulamışdı. Xarici siyasətin əsas tərkib hissələrindən biri kimi dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında sıx birliyi mühüm vəzifə kimi qarşıya qoyulmuşdu. Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə biri-birindən çətin, o dövrdə həyati əhəmiyyətli məsələlərin həlli üçün vacib olan xalqın birlik və həmrəyliyinin təminatı konsepsiyası hazırlanmışdı.

Azərbaycançılıq ideyalarının formalaşmasında milli mənəvi dəyərlərin çox mühüm rolu vardır. Heydər Əliyev milli-mənəvi dəyərləri milli ideologiyamızın mühüm tərkib hissəsi kimi qiymətləndirmişdir. Heydər Əliyev azərbaycançılıq ideologiyasını formalaşdırarkən çox əsrlik milli-mənəvidəyərlərinqorunmasına, dövlət siyasətində ehtiva olunmasına ciddi diqqət yetirirdi.

Azərbaycançılıq–Azərbaycanın tarixinin, mədəniyyətinin dünyada təbliği deməkdir. Azərbaycanın böyük ədib və mütəfəkkirlərinin, alimlərinin, mədəni irsimizin beynəlxalq miqyasda tanıdılması da bu işin mühüm tərkib hissəsidir.

Heydər Əliyev müstəqillik dövrünün dövlət ideologiyasını formalaşdırarkən XX əsr ziyalılarının əsərlərində milli ideya kimi türkçülüklə paralel olan azərbaycançılığı yeni tarixi şəraitdə milli dövlətçilik ideologiyası kimi sistemə saldı, , ümummilli ideya, dünya azərbaycanlılarının ideologiyası, milli birlik təlimi kimi əsaslandırdı. Bu zaman iki cəhət əsas götürüldü: 1. Azərbaycan Xalq cümhuriyyətinin dövlətçilik ənənələrinə tarixən düzgün yanaşıldı; 2. Azərbaycan münəvvərlərinin ana dili uğrunda əsrin önlərindəki fikir mücadilələri əxz olundu. Xalq Cümhuriyyətinin görkəmli dövlət xadimlərindən olmuş M.Ə.Rəsulzadə rus imperiyasının tərtib etdiyi xəritələrdən "Azərbaycan" dövləti adının silinib əvəzinə "Qafqasiya" yazılanda deyirdi: "Dünya müharibəsi və Rusiya inqilabının təsiri ilə əkiz doğulmuş və həyat siyasətinə ilk qədəm basmış olan Azərbaycan qayəsi əhatə olunmaz mühüm dəqiqələr keçirir".(3)

Qeyd etmək lazımdır ki, azərbaycançılıq fəlsəfəsini vahid Azərbaycanın ideya əsası, dünya azərbaycanlılarını birləşdirən ortaq dəyər və Azərbaycanı dünyaya tanıdan milli-mənəvi irs olaraq öyrənmək və təbliğ etməklə yanaşı, onu milli-dövlətçilik ənənəsinin mühüm postulatı kimidə diqqət də saxlamaq gərəkdir. Bu baxımdan əminliklə qeyd etmək olarki, Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoyduğu, sürətlə dünyaya inteqrasiya olunduğu indiki vaxtda Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş azərbaycançılıq məfkurəsinin milli-ideoloji plast olaraq dərindən tədqiqi, onun dünya azərbaycanlıları arasında və bütövlükdə beynəlxalq miqyasda təbliği təkcə bu günün deyil, həmdə sabahın tələbidir.

Yaxud onun Azərbaycan parlamentinin 1918-ci il 7 dekabr tarixli təntənəli iclasındakı çıxışında deyilir: "Müsəlman partiyaları arasında Azərbaycan ideyasında fikir ayrılığı yoxdur. Xalqın şüurunda Azərbaycan ideyası artıq möhkəmlənmişdir. Bir kərə yüksələn bayraq bir daha enməz".(4)



Azərbaycançılıq ideologiyası, bir tərəfdən, Azərbaycan türklərinin ölkədəki digər etnik qruplara tolerant münasibətinin, sülh içində yaşamaq istəyinin bariz göstəricisidirsə, digər yandan, Azərbaycanın türk dünyasının ayrılmaz parçası olduğunun təsdiqidir. Odur ki, azərbaycançılığı realist milli inkişaf modeli olaraq qəbul edən Azərbaycan türk dövlətləri arasında da bəlağət və pafosdan uzaq, səmimi və qarşılıqlı faydalı tərəfdaşlıqdan yana olduğunu daima nümayiş etdirir. Heydər Əliyev xaricdə yaşayan azərbaycanlıların dağınıq halda yaşamaması, onların diaspor fəaliyyəti göstərməsi üçün milli həmrəyliyin vacib olduğunu bildirdi. O, həm də yaxşı dərk edirdi ki, milli həmrəyliyin möhkəmlənməsi üçün azərbaycançılılıq ideologiyası zəruridir. Məhz bu ideologiyanın təbliği nəticəsində Azərbaycanı hansı səbəbdən tərk etmələrindən asılı olmayaraq xaricdə yaşayan soydaşlarımız arasında milli həmrəylik yarandı və onlar ümummilli maraqlar naminə birlikdə fəaliyyət göstərməyə başladılar. Bunun nəticəsində də soydaşlarımız arasında azərbaycançılıq ideologiyası milli həmrəyliyin konsepsiyasına çevrildi. Prezident xarici dövlətlərə ilk səfərlərindən başlayaraq getdiyi hər bir ölkədə yaşayan həmvətənlərimizlə – oradakı azərbaycanlı icmasının böyük və ya kiçikliyindən asılı olamayaraq – görüşlər keçirir, onların problemləri, qayğıları ilə maraqlanır, tövsiyələrini verirdi. Azərbaycan diasporunun yeni mərhələdə inkişaf tezislərini də məhz böyük öndərin həmin görüş və çıxışlarda söylədiyi fikirlər, müddəalar təşkil etmişdir. Özü də bu hər zaman şüarçılıqdan uzaq, reallığı əks etdirən, zərurətdən doğan fikir və müddəalar olub. Bu baxımdan Heydər Əliyevin 2001-ci ilin noyabrında Bakıda Dünya azərbaycanlılarının I qurultayında bəyan etdiyi tezislər əslində azərbaycançılığın, Azərbaycan təəssübkeşliyinin ən lakonik ifadəsi idi: “Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı birləşdirən bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı yaşatmalıyıq”.

Bu gün xalqımızda yaşanan və yaşadılan azərbaycançılıq məfkurəsi dünya azərbaycanlılarının bir ideya, eləcə də ideologiya istiqamətindəki fəaliyyətində olduqca zəruri və həssas amil kimi dəyərləndirilməkdədir. Azərbaycançılıq vahid və bölünməz Vətən, birlik və həmrəylik, dünyanı tanımaq və dünyaya öz milli "mən"inlə tanınmaq deməkdir. Belə ki, dünyaya səpələnmiş 50 milyonluq Azərbaycan xalqının bu ideya, bu məfkurə ətrafında birləşməsi milli həmrəyliyin yaranmasında ümdə rola malikdir. Təsadüfi deyil ki, azərbaycançılıq amili eyni

zamanda birləşdirici bir məfhum kimi qəbul olunur. Bu faktor da ondan irəli gəlir ki, azərbaycançılıq məfkurəsi ətrafında, etnik mənsubiyyətindən asılı olmayaraq, ölkəmizdəki bütün insanlar birləşib və Azərbaycanda yaşayan bütün xalqlar azərbaycançılığı birləşdirici, vəhdət yaradıcı bir ideya kimi dəyərləndirirlər. Bu baxımdan, azərbaycançılıq ideologiyası demək olar ki, xalqımızın bütün spektrini əhatə edir. Lakin burada tarixi faktlar da mövcuddur ki, onları səhifələdiyimiz zaman bir çox maraqlı məqamlara və dəlillərə istinad etmək mümkün olur. Belə ki, qədim dövrlərdən başlayaraq bugünümüzə qədər Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini, polietnik zənginliyini özündə yaşadan və birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq məfkurəsi özündə əhəmiyyətli təşəkkülünü tapmışdır.

**Nəticə:**

Ümummilli lider Heydər Əliyevin irsini təbliğ etmək üçün kitabxanalar hazırlayacaqları tədbirlər planına əsasən kitabxana fondunda olan materiallar əsasında müxtəlif adlarda mühazirələr, dəyirmi masa, disput, elmi-praktiki, nəzəri konfrans və seminarlar təşkil edirlər.

Milli Kitabxanada ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin qurulmasında və rifahının yüksəlməsindəkixidmətlərindən, onun mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin inkişafına göstərdiyi xüsusi qayğıdan bəhs edən kitabxananın fondunda olan materiallar əsasında elektron resurslar – elektron kitablar, məqalələr, fotoşəkillər, audio və video materiallardan ibarət "Heydər Əliyev mədəniyyətimizin hamisidir" adlı elektron məlumat bazası hazırlanmışdır.

**Ədəbiyyat**

1. Xələfov, A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi.-Bakı, Azərnəşr, 2006.-312 s
2. Heydər Əliyev. Minilliklərin qovşağında.-Bakı, 2001.- S.18.
3. Azərbaycan qəzeti.10 yanvar, 1918
4. Azərbaycan qəz. 13 dekabr, 1918